# Heydər Əliyev və Nizami Gəncəvi irsi

**Zəhra Allahverdiyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: zahra.allahverdiyeva@mail.ru

**Annotasiya.** Görkəmli dövlət başçısı və siyasi xadim Heydər Əliyevin fəaliyyətinin möhtəşəm sahələrindən biri də Azərbaycanda və postsovet məkanında nizamişünaslıq elminin inkişafına göstərdiyi əvəzsiz xidmətlərdir.

XX əsrin 70-ci illərindən başlayan Heydər Əliyevin təşəbbüsü və fəaliyyəti sayəsində, Azərbaycan nizamişünaslığı öz tarixində 2-ci çox möhtəşəm bir mərhələyə qədəm qoydu. Onun "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərarı ilə Azərbaycan nizamişünaslıq elminin tarixində yeni bir dövr başladı. Bu qərarla Nizami Gəncəvi irsinin nəşri, tədqiqi və təbliği işi böyük vüsət aldı, nizamişünaslığın aktual problemlərinin dünya elmi səviyyəsində həlli istiqamətlərində mühüm elmi əhəmiyyətli yeniliklər əldə olundu.

Heydər Əliyevin Azərbaycanın gələcək inkişafı haqqında ideya və arzuları içərisində xalqımızın mənəvi sərvəti olan Nizami Gəncəvi irsinin qorunması, tədqiqi və təbliği işi mühüm yer tuturdu.

Nizamişünaslığın genişmiqyaslı problemləri bu gün də Azərbaycan dövlətinin yeritdiyi siyasətin tərkib hissəsi olaraq daim diqqət mərkəzindədir. Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi ərəfəsində ölkəmizin Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında 5 yanvar 2021-ci il tarixli Sərəncamı ölməz şairin irsinə ardıcıl qayğı və diqqətin bariz nümunəsidir.

Heydər Əliyevin 100 illik yubileyi düşmən üzərində qələbəmizin 3-cü ildönümünə təsadüf edir. Ali Baş komandan, cəsur və müdrik prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz təcavüzkar erməni birləşmələrini qovub, doğma torpaqlarımızı işğaldan azad etdi. İşğal altında olan torpaqlarımızı azad görmək – Heydər Əliyevin ən böyük arzusu idi. Bu möhtəşəm Zəfər Günündə Azərbaycanın dövlət xadimi və dünyanın dahi siyasi lideri Heydər Əliyevi böyük hörmət və ehtiramla yad edirik!

**Açar sözlər:** Heydər Əliyev, İlham Əliyev, Nizami Gəncəvi, yubiley, Zəfər Günü

**Məqalə tarixçəsi:** göndərilib – 13.10.2023; qəbul edilib – 25.10.2023

# Heydar Aliyev and heritage of Nizami Ganjavi

**Zahra Allahverdiyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: zahra.allahverdiyeva@mail.ru

**Abstract.** One of the great areas of Heydar Aliyev's political and social activity is the invaluable services he rendered to the development of the world and Azerbaijani science of systematics.

Heydar Aliyev's initiatives in the 1970s marked the beginning of a significant and transformative phase in Azerbaijani Nizami studies. With the decision dated January 6, 1979, "On measures to further improve the study, publication and promotion of the heritage of the great poet and thinker of Azerbaijan, Nizami Ganjavi", a new era started in the history of Azerbaijani Nizami studies. This decision led to significant advancements in the publication, research, and promotion of Nizami

Ganjavi's heritage. It facilitated scientific innovations and efforts to address contemporary issues in the field of Nizami studies at the level of modern world scientific standards.
Among Heydar Aliyev's ideas and visions for the future development of Azerbaijan, the preservation, research, and promotion of the heritage of Nizami Ganjavi played a crucial role as a precious cultural and spiritual asset for the Azerbaijani people.
The significant issues within Nizami studies consistently occupy a central place in the policies pursued by the State of Azerbaijan. On the occasion of the 880th anniversary of the birth of Nizami Ganjavi, the Decree of the President of our country, Mr. Ilham Aliyev, dated January 5, 2021, declaring 2021 the "Year of Nizami Ganjavi" in the Republic of Azerbaijan is a clear example of consistent care and attention to the heritage of the immortal poet.
The 100th anniversary of Heydar Aliyev aligns with the 3rd anniversary of our victory over the adversary. Under the guidance of our Commander-in-Chief, the courageous and astute President Ilham Aliyev, our Victorious Army successfully removed the aggressive Armenian forces and liberated our homeland from occupation. The greatest aspiration of Heydar Aliyev was witnessing our reclaimed lands. On this momentous Victory Day, we pay our heartfelt respects to Heydar Aliyev, the esteemed statesman of Azerbaijan and a distinguished global political leader!
**Keywords:** Heydar Aliyev, Nizami Ganjavi, anniversary, Ilham Aliyev, Victory Day

**Article history:** received – 13.10.2023; accepted − 25.10.2023

## Giriş / *Introduction*

Azərbaycanın görkəmli dövlət başçısı və siyasi xadimi Heydər Əliyevin adı ölkəmizin şərəf salnaməsində əbədi olaraq yaşayacaqdır. Dahi liderin Azərbaycanın dövlətçilik tarixində yürütdüyü müdrik daxili və xarici siyasətində elmin inkişafı naminə gördüyü işlər, elmə və elm adamlarına verdiyi yüksək qiymət xüsusi yer tutur. Mən hələ çox gənc olarkən, 1975-ci il sentyabrın 23-də Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasının Xalqlar Dostluğu ordeni ilə təltif edilməsi ilə əlaqədar bu elm ocağına gəlişini, onun inkişaf edən Azərbaycanın elmi potensial gücü ilə necə qürur duyduğunu və elmin bütün sahələrinə şəxsən özünün nəzarət etdiyini müşahidə etmişəm. Bu ağıllı dövlət xadimini Nizami Gəncəvinin qələmə aldığı uca sərkərdələrlə müqayisə etmək olar və onu xatırlayarkən dahi şairin "İskəndərnamə" əsərində söylədiyi aşağıdakı sözlər yada düşür:

*O böyük, ağıllı, ayıq hökmdar,*
*Öz uca taxtında tutarkən qərar,*
*Əmr etdi, verildi belə bir fərman:*
*"Alimdir gözümdə ən əziz insan!*
*Elmlə, hünərlə!-Başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Rütbələr içində seçilir biri-*
*Hamıdan ucadır alimin yeri!"* [8, s.37]

Heydər Əliyevin siyasi-ictimai fəaliyyətinin möhtəşəm sahələrindən biri də dünya və Azərbaycan nizamişünaslıq elminin inkişafına göstərdiyi əvəzsiz xidmətlərdir. Bu bir həqiqətdir ki, XX əsrin II yarısından başlayaraq Nizami Gəncəvi irsinin tədqiqi, təbliği və dünya xalqlarının dillərinə tərcüməsi işinin genişləndirilməsi Azərbaycanın dahi lideri Heydər Əliyevin adı ilə bağlıdır.

## **Əsas hissə / *Main Part***

Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycan Respublikasının rəhbəri olduğu dövrdə dahi şairimiz Nizami Gəncəvi irsinin tədqiqi və təbliği işinə xüsusi qayğı və diqqət göstərmişdir. Bu mərhələdə Azərbaycanda, eləcə də postsovet məkanında nizamişünaslığın inkişafı onun müdrik dövlətçilik siyasətinin tərkib hissələrindən biri olmuşdur.

Hər şeydən əvvəl, Heydər Əliyev Nizami Gəncəvi yaradıcılığına dərindən bələd olan, onun sənətkarlığına heyran olaraq, hətta şeirlərindən nümunələri əzbər söyləyən, dahi şairin sənətinin dünya mədəniyyətində misilsiz bir xəzinə olduğunu bilən yüksək intellektli, fenomen yaddaşa malik bir şəxsiyyət idi.

Hələ 1 noyabr 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqda söylədiyi nitqində o, Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin öndə gedən simaları sırasında – “mütəfəkkir şair Nizami Gəncəvi” [1, s.4], – deyə dahi sənətkarın adını xüsusi məhəbbət və qürurla çəkirdi.

Nizami Gəncəvi yaradıcılığı Heydər Əliyevin hər zaman güvəndiyi zəngin ictimai-fəlsəfi mənbələrdən idi və şairin öz əsərlərində qoyduğu siyasi-ictimai, əxlaqi ideyalar onun dünyagörüşündə və dövlətçilik siyasətində dərin iz buraxmışdır.

O, Nizami Gəncəvinin öz əsərlərində qoyduğu və bəşəriyyətin ali missiyasına çevrilən humanist fəlsəfəni, ictimai ədaləti, insanlar arasında dini-irqi ayrı-seçkilikdən uzaq tolerant dünyagörüşü dərindən izləyir və dahi şairin sənətinə heyranlığını bildirirdi. Yeri düşdükcə, Nizami əsərlərindən nümunələr gətirməklə, insanpərvərlik və beynəlmiləlçilik dünyagörüşünün Azərbaycan xalqına xas mühüm bir xüsusiyyət olduğunu göstərirdi.

Təsadüfi deyildir ki, Heydər Əliyev 1972-ci il 16 avqustda Moskvada nəşr olunan "Literaturnaya qazeta"ya verdiyi müsahibəsində jurnalistin “Azərbaycan yazıçılarının yaradıcılığında sovet adamlarının dostluğu və qardaşlığı mövzusu necə işıqlandırılır?” – sualının cavabında Nizami Gəncəvi yaradıcılığına istinad etmiş, onun əsərlərinin əsas qayəsini təşkil edən və çox parlaq cizgilərlə ifadə olunmuş ümumbəşəri məhəbbət ideyasını nümunə gətirərək, yığcam və dəqiq şəkildə belə söyləmişdir: «Азербайджанская литература, как и все подлинно гуманные, прогрессивные литературы других народов, имеет свои славные многовековые интернациональные традиции. Гениальные творения Низами, с горячей любовью воспевшего сынов и дочерей разных народов… наглядно показывают, что идеи интернационализма и дружбы народов составляют одну из замечательных традиций азербайджанской литературы» – Digər xalqların bütün əsl humanist mütərəqqi ədəbiyyatları kimi, Azərbaycan ədəbiyyatının da öz şanlı çoxəsrlik beynəlmiləlçilik ənənələri vardır. Müxtəlif xalqların oğul və qızlarını alovlu məhəbbətlə tərənnüm etmiş Nizaminin dahiyanə əsərləri… beynəlmiləlçilik və xalqlar dostluğu ideyalarının Azərbaycan ədəbiyyatının əlamətdar ənənələrindən birini təşkil etdiyini əyani şəkildə göstərir [6, c.2].

Azərbaycan nizamişünaslığında Heydər Əliyevin müstəsna əməyini qiymətləndirmək üçün bu sahənin inkişaf tarixinə qısaca nəzər salmaq lazım gəlir. Məlumdur ki, Azərbaycan nizamişünaslığının I möhtəşəm mərhələsi, yəni XX əsrin 40-cı illər dövrü öz monumental töhfələrilə dünya elmi tarixində yeni bir səhifə açmışdı. 40-cı illərə nisbətən, sonrakı 50-60-ci illər, ilk baxışdan durğunluq, sakitlik dövrü kimi nəzərə çarpsa da, əslində nizamişünaslıq artıq qurulmuş olan sxem əsasında sakit elmi tədqiqlərə keçmişdi və nizamişünaslığın vacib problemlərininə həsr olunmuş onlarla monoqrafiyalar yazılmışdı. Lakin Nizami əsərlərinin nəşri və onun irsinin dünya miqyasında tərcümə və təbliği işində 40-cı illərə nisbətən, bir durğunluq nəzərə çarpmaqdaydı.

Heydər Əliyevin 70-ci illərdən başlayan təşəbbüsü və fəaliyyəti sayəsində, Azərbaycan nizamişünaslığı öz tarixində 2-ci çox möhtəşəm bir mərhələyə qədəm qoydu. Onun “**Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında**” 1979-cu il 6 yanvar tarixli qərarı ilə Azərbaycan nizamişünaslıq elminin tarixində yeni bir dövr başladı [2, s.1].

Bu qərarla Nizami Gəncəvi irsinin nəşri, tədqiqi və təbliği işi böyük vüsət aldı, nizamişünaslığın aktual problemlərinin çağdaş dünya elmi səviyyəsində həlli istiqamətində geniş imkanlar açıldı. Şairin həyatı və yaradıcılığının müxtəlif elmi aspektlərdən tədqiqata cəlb olunması, sənətinin dünya fəlsəfəsi və poeziya tarixinə təsirinin öyrənilməsi, həmçinin dünya şərqşünaslıq elmi tərəfindən qiymətləndirilməsi və sair məsələlərin tədqiqi qlobal xarakter aldı.

Heydər Əliyevin 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı isə nizamişünaslıq problemlərinin həllini Ümumittifaq miqyasında misli görünməmiş məcraya yönəltdi. Məhz onun təşəbbüsü və himayədarlığı ilə 1981-ci ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda ilk dəfə olaraq, ayrıca Nizamişünaslıq şöbəsi yaradıldı. Şöbəyə rəhbərlik dünya şöhrətli şərqşünas - alim, professor, əməkdar elm xadimi Rüstəm Əliyevə həvalə olundu. Heydər Əliyevin xüsusi tapşırığı, qayğısı və nəzarəti ilə Respublikada, o cümlədən Nizamişünaslıq şöbəsində Nizami Gəncəvi “Xəmsə”sinin yenidən nəşri, şairin əsərlərinin Azərbaycan və rus dillərində filoloji tərcümələri və həyatının, ədəbi mühitinin və yaradıcılığının tədqiqi sahəsində qızğın iş gedirdi. O zaman ayda bir dəfə şöbə rəhbəri Rüstəm Əliyev o dövr Mərkəzi Komitənin İdeoloji məsələlər üzrə katibi və siyasi xadimi Həsən Həsənova hesabat verir və o da Nizamişünaslıq sahəsindəki işlərin gedişi haqqında ölkənin rəhbəri Heydər Əliyevə məruzə edirdi.

Həmin dövrdə bütövlükdə Nizami Gəncəvi mövzusu ədəbi prosesin ən aktual problemlərindən birinə çevrildi. Əhəmiyyətli hadisələrdən biri kimi “Nizami Gəncəvi əsərlərinin Azərbaycan və rus dillərinə filoloji tərcümələrini göstərmək lazımdır. Çünki həmin dövrdə artıq oxucunu poetik tərcümələr qane etmir və oxucuda şairin poeziyasının bədii-fəlsəfi dəyərini daha dəqiq, daha dərindən qavramaq meyli güclənir. Məlumdur ki, filoloji tərcümələr poetik və sətri tərcümələrdən əsaslı şəkildə fərqlənir. Filoloji tərcümədə müəyyən prinsip və məna tutumu daxilində orijinala məxsus obrazlılıq, üslub və dil xüsusiyyətləri qorunub saxlanılır. Əlbəttə, bu çətin iş yaradıcı mütərcimdən zəngin bilik, sənətkarlıq, istedad və təcrübə tələb edirdi” [7, s.52].

Onu da qeyd etməliyəm ki, Nizami Gəncəvi əsərlərinin filoloji tərcümələri üzrə mütərcim-alimlərə işlərinin başlanğıcından sonuna qədər Heydər Əliyevin xüsusi diqqəti və qayğısı var idi.

Nizami Gəncəvinin həyatı və yaradıcılığının öyrənilməsi üzrə də mühüm tədqiqatlar aparılırdı: R.Azadə. “Nizami Gəncəvi. Həyatı və sənəti” (Bakı, 1979; 1980), Nüşabə Araslı. “Nizami və türk ədəbiyyatı” (Bakı, 1979), A.Hacıyev. “Renessans və Nizami Gəncəvi poeziyası” (Bakı, 1980), M.Cəfər. “Nizaminin fikir dünyası” (Bakı, 1982), X.Yusifov. “Şərqdə intibah və Nizami Gəncəvi” (Bakı, 1982), R.Əliyev. “Nizami. Azərbaycan, rus və ingilis dillərində biblioqrafik məlumat”(Bakı, 1983) və “Ölməz məhəbbət dastanı” (Bakı, 1984), Q.Cahani. “X.Hüseynov.“Nizaminin “Sirlər xəzinəsi”(Bakı, 1983), Ç.Sasani. “Nizaminin “Leyli və Məcnun”poeması” (Bakı, 1985), M.Kazımov. “Nizaminin “Yeddi gözəl” poeması və XIV-XVI əsrlər farsdilli ədəbiyyatda nəzirə ənənəsi” (Bakı, 1987), Z.Quluzadə. “Şərq mədəiyyəti tarixinin nəzəri problemləri və nizamişünaslıq” (Bakı, 1987), C.V.Qəhrəmanov və K.Allahyarov. “Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində” (Bakı, 1987) və sair əsərləri nümunə gətirmək olar.

Nizami Gəncəvi əsərlərinin Ümumittifaq miqyaslı nəşrləri: Nizami. Şeirlər və poemalar. (Leninqrad, 1981), Nizami Gəncəvi. Seçilmiş əsərləri. 5 cilddə (Moskva, “Xudojestvennaya literatura”, 1985) və “Həft peykər”, elmi-tənqidi mətn: T.Məhərrəmov (Moskva, 1987) və sair kitablar həmin dövrdə nəşr olunmuşdur.

Əslində bu görülən işlərin hamısı sadə yolla həll olunmurdu. Bu işlərin arxasında böyük məsuliyyət dayanırdı. O zaman respublikamız sovetlər birliyinin tərkibində idi. Hər bir irimiqyaslı nəşrlər və tədbirlər müxtəlif instansiyalardan keçməli olurdu. Bu iş respublika rəhbərliyindən böyük iradə, ağır zəhmət və güclü vətənpərvərlik tələb edirdi. Heydər Əliyev özü bu hadisələri 1993-cü il 21 sentyabrda Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşündə xatırlayaraq söyləyirdi: “1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tuturdular ki, 840 il

yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər [4, s.156].

Nizami əsərlərinin dünya miqyasında nəşrinin keyfiyyəti məsələsi də həmişə onu düşündürürdü. Həmin nitqində Heydər Əliyev söyləyirdi:

"Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yazmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdı. Nizami Gəncəvinin əsərlərinin Moskvada rus dilində nəşr olunması barədə qərar qəbul edilmişdir. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqıma xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim. Lakin Moskvada mənə dedilər ki, Nizaminin əsərlərinin rus dilinə tərcüməsi istənilən səviyyədə deyildir. O zaman Mirzə İbrahimovdan və başqalarından xahiş etdim ki, mən artıq Azərbaycanda deyiləm, görün nə etmək olar ki, Nizami Gəncəvinin əsərləri rus dilinə yenidən tərcümə edilsin. Bəzi adamlar isə buna etiraz edirdilər… Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir [4, s.157].

Heydər Əliyev müstəqillik dövründə Nizami Gəncəvinin 850 illik yubileyinin keçirilməsini qiymətləndirərkən, XX əsrin 40-cı illərindən sonra görülən işləri hələ də kifayət hesab etmir, Nizami irsinin təbliğ və tədqiqini mütəmadi şəkildə aparmağı vacib bilərək söyləyirdi:

"Nizami Gəncəvinin 850 illiyi qeyd edilmişdir. Hansı səviyyədə qeyd edildiyini deyə bilmərəm. Ona görə yox ki, bu yubiley böyük bayram kimi keçirilməlidir. Bu, Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır. Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Lakin 1948-ci ildən ötən 50 ilə yaxın bir vaxtda biz onların istənilən səviyyədə tətbiq edilib yayılmasına nail ola bilməmişik [4, s.157].

Respublikada keçirilən bütün mədəniyyət tədbirlərində Nizamişünaslığın problemləri onu düşündürürdü. O, "1947-ci ildə keçmiş sovetlər birliyində kartoçka sisteminin tətbiq olunduğu bir dövrdə Nizaminin yubileyinin keçirilməsini əsl fədakarlıq" kimi qiymətləndirir və müstəqillik dövründə bu işi davam etdirməyi tövsiyə edirdi. Onun sərəncamı və rəhbərliyilə 1999-cu ildə türkdilli abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə təşkil olunmuş Dövlət Komissiyasının iclasında yenə də söyləyirdi:

"Biz keçmiş zamanlarda böyük minnətdarlıq hissi ilə qeyd edirdik ki, İkinci Dünya müharibəsi, Vətən müharibəsi gedən zaman, Leninqrad blokadada olduğu dövrdə orada Nizaminin 800 illik yubileyi keçirilmişdir… Bu tarixdir, həqiqətdir. Biz indi müstəqil dövlətik. Müstəqil dövlət kimi xalqımızın milli köklərini,tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik [5, s.1].

O, təkcə nizamişünaslıqda deyil, ümumiyyətlə, bütün sahələrdə elmi qüvvələr potensialının vacibliyini vurğulayır, tədqiqatçı alimlərin zəhmətini yüksək qiymətləndirirdi: "Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənbəyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir" [3, s.1], – deyə həmişə elmi mütəxəssislərə arxalanırdı.

Bir məsələni də qeyd etmək vacibdir ki, Gəncədə Nizami Gəncəvi məqbərəsinin bərpa olunaraq yenidən qurulması H.Əliyevin və onun varislərinin adı ilə bağlıdır. Hal-hazırda Gəncədəki möhtəşəm "Xəmsə" Abidə Kompleksi, zənnimcə, hər bir azərbaycanlının qürur mənbəyidir.

Heydər Əliyevin Azərbaycanın gələcək inkişafı haqqında ideya və arzuları içərisində xalqımızın mənəvi sərvəti olan Nizami Gəncəvi irsinin qorunması, tədqiqi və təbliği işi mühüm yer tuturdu.

Nizamişünaslığın genişmiqyaslı problemləri bu gün də Azərbaycan Dövlətinin yeritdiyi siyasətin tərkib hissəsi olaraq daim diqqət mərkəzindədir. Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi ərəfəsində ölkəmizin Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci

ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında 5 yanvar 2021-ci il tarixli Sərəncamı ölməz şairin irsinə ardıcıl qayğı və diqqətin bariz nümunəsidir.

**Nəticə / *Conclusion***

Heydər Əliyevin 100 illik yubileyi düşmən üzərində qələbəmizin 3-cü ildönümünə təsadüf edir. Ali Baş komandan, cəsur və müdrik prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz təcavüzkar erməni birləşmələrini qovub, doğma torpaqlarımızı işğaldan azad etdi. İşğal altında olan torpaqlarımızı azad görmək - Heydər Əliyevin ən böyük arzusu idi. Bu möhtəşəm Zəfər Günündə Azərbaycanın dövlət xadimi və dünyanın dahi siyasi lideri Heydər Əliyevi böyük hörmət və ehtiramla yad edirik!

**Ədəbiyyat / *References***


1. Heydər Əliyev. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin nitqlərindən, məruzələrindən, çıxışlarından, müsahibələrindən seçmələr. 1969 (noyabr) – 1982 (oktyabr) Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident kitabxanası. http://heydaraliyev.preslib.az/
2. Heydər Əliyev. Azərbaycan KP MK–nın Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında qərarı, “Kommunist”, 1979, 6 yanvar.
3. Heydər Əliyev. Gərək xalqımızın dərin köklərini ümumi sözlərlə yox, dərin sübutlarla dünyaya göstərək. “Ədəbiyyat” qəzeti, 16 avqust, 2002, № 33.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, iyun, 1993-may, 1994. Çıxışlar, nitqlər, bəyanatlar,məktublar, müsahibələr. – Azərnəşr, 1997.
5. Heydər Əliyev. Tariximizin görkəmli səhifələrini xalqımızın bu günkü və gələcək nəsillərinə, bütün dünyaya daha yaxşı tanıtmalıyıq. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi, “Ədəbiyyat” qəzeti, 16 aprel, 1999, №15.
6. Гейдар Алиев. В союзе равных. Первый секретарь ЦК КП Азербайджана Г. А. Алиев отвечает на вопросы главною редактора, «Литературная газета», 1972, № 33 , 16 август.
7. Allahverdiyeva, Z. Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı (XX əsrin 40-cı illəri), – Bakı: Nurlan, 2007.
8. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Fars dilindən tərcümə: Mikayıl Rzaquluzadə, – Bakı: Lider, 2004.


## Гейдар Алиев и наследие Низами Гянджеви


**Захра Аллахвердиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: zahra.allahverdiyeva@mail.ru



**Резюме.** Одним из великих направлений политической и общественной деятельности Гейдара Алиева являются его неоценимые заслуги в развитии мировой и азербайджанской систематической науки. Инициативы Гейдара Алиева в 1970-х годах ознаменовали начало значительного и преобразующего этапа в азербайджанском низамиведении. С решением от 6

января 1979 года «О мерах по дальнейшему улучшению изучения, публикации и пропаганды наследия великого поэта и мыслителя Азербайджана Низами Гянджеви» началась новая эпоха в истории азербайджанского низамиведения. С этим решением был достигнут важный прогресс в публикации, исследовании и пропаганде наследия Низами Гянджеви. Это способствовало научным инновациям и усилиям по решению современных проблем в области низамиведения на уровне современных мировых научных стандартов. Среди идей и видений Гейдара Алиева относительно будущего развития Азербайджана сохранение, исследование и популяризация наследия Низами Гянджеви сыграли решающую роль как ценного культурного и духовного наследия азербайджанского народа. Важные вопросы исследований Низами неизменно занимают центральное место в политике, реализиумой Азербайджанским государством. По случаю 880-летия со дня рождения Низами Гянджеви Указ Президента нашей страны господина Ильхама Алиева от 5 января 2021 года об объявлении 2021 года «Годом Низами Гянджеви» в Азербайджанской Республике является ярким примером последовательной заботы и внимания к наследию бессмертного поэта. 100-летие Гейдара Алиева совпадает с 3-летием нашей победы над противником. Под руководством Главнокомандующего, мужественного и проницательного Президента Ильхама Алиева наша Победоносная армия успешно вытеснила вторгшиеся армянские силы и освободила наши земли от оккупации. Самым большим желанием Гейдара Алиева было освобождение наших оккупированных земель. В этот знаменательный День Победы мы выражаем глубокое почтение уважаемому государственному деятелю Азербайджана и выдающемуся мировому политическому лидеру Гейдару Алиеву!

**Ключевые слова:** Гейдар Алиев, Низами Гянджеви, юбилей, Ильхам Алиев, День Победы